# Göyərçin

№ 4-5 2002
ISSN-0207-4710



# Axmağın dostluğu ilə düşmənin dostluğu eynidir

ƏFQAN NAĞILLARI

Padşahın ağ şahini vardı. Şah onu çox sevir və qoruyurdu. Bir gün şahin uçub bir qarının evinin üstünə qondu. Qarı şahini tutub evə gətirdi və onu nəvazişlə süzməyə başladı. Qarı bu gözəllikdə şahinin əyri dimdiyini görüb deyindi:

- Vay, vay, yazıq! Bu əyrı dimdiklə buğdanı necə dənləmək olar?!

O, iti bıçaq götürüb dimdiyin əyri hissəsini kəsib bərabərləşdirdi və özündən razı halda dedi:

- Bu başqa məsələ! İndi rahatca buğda dənləyə bilər.



Bundan sonra qarının gözləri şahinin iti caynaqlarına sataşdı:

- Ox, bədbəxt quşcuğaz, nə əcəb bu yazığın caynaqlarının ucunu kəsmək kiminsə ağlına gəlməyib?!

Qarı şahinin caynaqlarını da kəsdi ki, quşcuğaz ayaq üstə dura bilsin.

Quşun yoxa çıxmağı padşahı narahat etdi. O, əmr verdi ki, şahini kim tapıb gətirsə, ona mükafat veriləcək.

Adamlar bədbəxt quşcuğazı axtarırdılar və onu qarının evində tapdılar. Onu şahın yanına gətirib dedilər ki, qarı şahinə çox nəvaziş və qayğı göstərib, onun əyri dimdiyini və caynaqlarını düzəldib.

Padşah şahinə baxıb qəmləndi, lakin bir söz demədi. Sonra əmr etdi ki, quşu açıb buraxsınlar.

İnci onun qiymətini bilməyən adamın əlinə düşəndə dəyərini itirir. Axmağın dostluğu ilə düşmənin dostluğu arasında fərq yoxdur.



# Ədalətli hakim

Bir tacirin içində yüz əşrəfi olan pul qabı itir. O nə qədər axtarırsa, soraqlayırsa, pul qabını tapa bilmir ki, bilmir. Naəlac qalan kişi e'lan edir ki, kim içində yüz əşrəfi olan pul qabını tapıb gətirsə, ona on əşrəfi bağışlayacağam.

Pul qabını tapan namuslu, vicdanlı bir adam onu sahibinə qaytarır və deyir:

- Pul qabını götür və və'd etdiyin on əşrəfini ver.

Acıqlı tacir deyir:

- Bu pul qabının içində yüz on əşrəfi var idi. Sən artıq öz payını götürmüsən. Daha məndən nə istəyirsən?

Tacirin bu hərəkətindən narazı qalan adam hakimin yanına gedir və başına gələnləri ona danışır.

Hakim taciri yanına çağırıb soruşur:

- Nə üçün bu kişiyə və'd etdiyin pulu vermirsən?

- Möhtərəm hakim, o özü mənim pul qabımın içindən on əşrəfi götürüb. Mən ona daha nə verməliyəm ki?

Hakim içində yüz əşrəfi olan pul qabını alıb onu tapana verir və tacirə deyir:

- Əgər sənin itən pul qabının içində yüz on əşrəfi var imişsə, deməli bu pul qabı sənin deyil. Sahibi gəlib çıxanda bu kişi pul qabını ona verər və hədiyyəsini də alar.

Tərcümə edəni:
*R. ƏLİYEV*





Rəssam *VƏFA*